## TƏLTİF VƏ MÜKAFATLARI




**"İstiqlal" ordeni** — 15 aprel 1995.

"İstiqlal" ordeni — Azərbaycan Respublikasının dövlət təltifi. 1992–2005-ci illərdə Azərbaycanın ən yüksək dövlət təltifi olmuşdur.




**"Əməkdə fərqlənməyə görə" medalı -** 9 iyun 1959.

Sovet İttifaqının mülki əmək mükafatı. Xüsusən yüksək əmək məhsuldarlığı nümayiş etdirən işçilər və ya elm, mədəniyyət və ya istehsal sənayesi sahələrində böyük töhfələr vermiş şəxslər bu mükafata layiq görülmüşdür. 27 dekabr 1938-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə yaradılmış medalı 50 ildən bir qədər çox müddət ərzində təqribən 2 milyon vətəndaşa verilmişdir.




"**Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adı** — 13 sentyabr 1974 .

25 mart 1928-ci ildə təsis edilmiş fəxri ad. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Azərbaycan mədəniyyətinin inkişaf etdirilməsi işində xüsusi fərqlənən incəsənət xadimlərinə verilirdi.




**"Qırmızı əmək bayrağı" ordeni** — 20 avqust 1975.

**"Qırmızı əmək bayrağı" ordeni** — Əmək xidmətlərinə görə SSRİ-nin ümumi mülki mükafatıdır. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 7 sentyabr 1928-ci il tarixli qərarı ilə yaradılmışdır.



**“Azərbaycan SSR Dövlət mükafatı “**— 27 aprel 1976 ("Leninlə söhbət" və "Muğam" poemalarına görə).

**“Azərbaycan SSR Dövlət mükafatı”** (azərb-kiril. Азәрбајҹан ССР Дөвләт мүкафаты) — Azərbaycan SSR-də ədəbiyyat, incəsənət və arxitektura, elm və texnika xadimlərinə və əmək nailiyyətlərinə görə istehsal qabaqcıllarına iki ildən bir verilən yüksək mükafat.




**"Azərbaycan SSR xalq şairi" fəxri adı** — 26 noyabr 1984.

Azərbaycan SSR xalq şairi (azərb-kiril. Азәрбајҹан ССР халг шаири) — 23 yanvar 1956-cı ildə təsis edilmiş fəxri ad. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən görkəmli şairlərə verilirdi.




**"Oktyabr inqilabı" ordeni** — 16 noyabr 1984.

**"Oktyabr inqilabı" ordeni** — SSRİ-nin ali dövlət mükafatlarından biri, SSRİ Ali Soveti Rəyasət Heyətinin 31 oktyabr 1967-ci il Fərmanı ilə 1917-ci il Oktyabr İnqilabının 50 illik yubileyi münasibətilə təsis edilib.

**M. F. Axundov adına ədəbi mükafat (Azərbaycan Yazıçılar İttifaqı)** — 11 yanvar 1989 ("Axı dünya fırlanır" poema və şeirlər kitabına (1987) görə.

**“Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü”** — 11 iyun 2002.

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü — Azərbaycan xalqı qarşısında böyük xidmətləri olmuş şəxslər üçün təyin edilmiş fərdi təqaüd. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli fərmanı ilə Azərbaycanın ədəbiyyat və incəsənət xadimlərinin, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, dövlət idarəçiliyində və digər sahələrdə böyük əməyi olmuş şəxslərin xidmətlərinin qiymətləndirilməsi və onların sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə təsis edilmişdir.